# Müstəqil auditorun hesabatı

**" Atəşgah "Sığorta Şirkəti ASC-nin**

**rəhbərliyinə**

Biz, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 2014-cü il 22 iyul tarixli 080809 saylı lisenziyaya əsasən fəaliyyət göstərən "L. B. Audit Xidməti" MMC-nin direktoru – Auditor Lamiyə Bayramova və 2011-ci il 19 dekabr tarixli SA/311 qeydiyyat №-li 072699 saylı lisenziyaya əsasən fəaliyyət göstərən Auditor M.A.Allahverdiyev "L.B. Audit Xidməti" MMC ilə "Atəşgah" Sığorta ASC arasında bağlanılmış 18.12.2014-cü il tarixli 95 saylı müqaviləyə və "L.B. Audit Xidməti" MMC-nin 05.02.2015-ci il tarixli 30 saylı sərəncamına əsasən, həmin cəmiyyətin 31.12.2014-cü il tarixə sığortaçının (təkrarsığortaçının) və hüquqi şəxs sığorta brokerinin mühasibat balansından ( Forma № 1 S) və bu tarixdə başa çatmış il üzrə sığotaçının (təkrarsığortaçının) və hüquqi şəxs sığorta brokerinin mənfəət və zərəri haqqında hesabatından ( Forma № 2 S), kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

## Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

## Auditorun məsuliyyəti

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında



Ünvan: Bakı ş. AZ 1065. İnşaatçılar pr., 42/42
Tel./Faks: +994 12 436 96 75 Mob: +994 50 743 30 06
E-mail: audit@lbconsulting.az www.lbconsulting.az

əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də

fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

**Rəy**

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Bizim fikrimizcə, Cəmiyyətin maliyyə hesabatları 31.12.2014-cü il tarixinə maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri, kapitalda dəyişikliklər və pul vəsaitlərinin axını üzrə Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Müstəqil auditorun hesabatı 23.02.2015-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə "L.B. Audit Xidməti" MMC –də saxlanılır.

**"L.B. Audit Xidməti"**

**MMC-nin direktoru-auditor** **L.Q. Bayramova**

**"L.B. Audit Xidməti"**

**MMC-nin auditoru** **M. A. Allahverdiyev**

23.02.2015-ci il